Azad Azərbaycan
10 mart 2023-cü il №04 (3734)


# Eşq işıqlı şair Ağamir Cavad

*AĞAMİR CAVAD - 60*



**Çağdaş ədəbiyyatımızın istedadlı nümayəndələrindən olan Ağamir Cavad ötən əsrin səksəninci illərində ədəbiyyata gəlmiş, elə ilk əsərləri ilə diqqəti cəlb edərək özünə geniş oxucu auditoriyası qazanmışdır.**

Şairin poeziyasının ruhu eşq işığından qidalanıb, pöhrə atıb desəm, bəlkə də, mənim bu fikrimlə razılaşarsınız.

Sev dəli ürəyim, sev, dəli könlüm,
Günəşdən nur alan bütöv bir Ayam.
Eşq ilə döyünən sevdalı könlüm,
Mən də sevdalılar sırasındayam.

Şairin 2007-ci ildə çapdan çıxan "Eşq işığı" kitabında bütöv bir bölmə eşqə həsr olunmuşdur. Şairin "Mən bir eşq adamıyam", "Bu eşq", "Səyyahım","Nə yaxşı ki, varsan", "Sənsən","Bəyaz libaslı gözəl", "Sənin göz yaşların","Sənin əllərin", "Sənin təbəssümün", "Sənin dodaqların" və s. şeirləri üreyi riqqətə gətirir, ən şirin eşq nəğmələri kimi damarlarına işləyir; ovsunlanırsan və istəyirsən ki, sən də bu eşq işığının zərrəciyinə çevriləsən. İstəyirsən ki, sən də Ağamir Cavad olasan və hər sətrində eşq odunda yanasan, qovrulasan... Ancaq bu eşq misralarını Ağamir Cavad üslubunda təkcə özü yaza bilər.

Bu eşq nə vaxt doğuldu?
Bu eşq harda doğuldu?
Bu eşq nədən doğuldu?
Nədən başladı bu eşqin əzəli?
Öldürmə bu eşqi, İlahi,
Bu eşq-eşqlərin ən gözəli.

Ağamir Cavadın eşqi ümumbəşəri eşqdir: poeziyaya, insanlara, təbiətə, mənəvi gözəlliyə, müsiqiyə, sabaha açılan gözəl günlərimizə, dünyaya, ən nəhayət, içindəki əbədi eşqin narahatçılığından meydana gələn, "xəmiri eşqdən yoğrulan" lirik-fəlsəfi şeirlərindəki ilahi sevginin gerçək həyatımızdakı təzahürüdür. Bəlkə də mən yanılıram? Bəlkə də mən şair dostumun eşq haqqında fikirlərinin fəlsəfi mahiyyətini öz duyğularımın sferasından yaxşı görə bilmirəm? Bəlkə də bu görüntülərin arxasında mənə məlum olmayan daha sirli, dünyanın ölçüsünə, mizanına sığışmayan bir eşq gizlənir ki, mən onu görə bilmirəm. Şair özü demişkən: " Şairlər sevgidən doymurlar." Bax, Ağamir Cavad belə şairlərimizdəndir: öz nəfəsi, öz doğma duyğuları, öz üslubu olan şair kimi doğma Lənkəranımızda bir şair ömrü yaşayır. Bu şair ömrünün sonu isə eşq işığında əriyə-əriyə, şübhəsiz ki, onun poeziyasını sevənlərin əbədi xatirələrinə qovuşduracaq...

Şair Ağamir Cavadın ötən il çap olunan "DƏNİZ ADAM" adlandırdığı yeni kiabı "Çəkdiyim şəkillərin ruhu" (2002), "Eşq işığı" (2007), "İşıq adam" (2009), "Yanmış budaq üstə oxuyan bülbül" (2013), "Ömrün eşq yolu" (2017) poetik toplularından sonra oxucularla altıncı görüşü olub..

**Həyata fəlsəfi baxış, Vətən, yurd sevgisi, saf məhəbbət duyğuları, insanları mənəvi saflığa, gözəlliyə çağırış kitabdakı əsərlərin əsas leytmotivini təşkil edir. Kitabın redaktoru Hacı Etibar Əhədov, rəssamı isə Adil Əsədlidir. Şair ön söz yerinə:**

Bu dünyanın pərsəngini düzəldən,
Haqqı doğan bir anadır bu kitab.
Sözü sığmır bu zamana əzəldən,
Dünya adlı zindanadır bu kitab.- deyərək

şeirlər kitabının məziyyətlərindən danışır. O, öz kitabını əbədi bir ünvana, haqqa, ədalətə, yol gedən inama, imana, dağlardakı dumana, qəlb ağladan kamana, ağıllı düşmənə ünvanlasa da, qəlbinin titrəyişi ilə yazdığı bu kitabında nəticə olaraq fikrini belə yekunlaşdırır:

Ay Ağamir, sorma bu eşq nədəndir,
Torpaq candır, can torpaq-bir bədəndir.
Hər sözünün mübtədası Vətəndir,
Vətən adlı məkanadır bu kitab.

Öz vətəndaşlıq ənənəsinə uyğun olaraq Ağamir Cavad kitabının əvvəlinci səhifələrində yenə də Vətən sevgisindən, dövlətə bağlılığından, ermənilər üzərindəki tarixi Zəfərimizdən danışır və bu qalibiyyəti təntənə ilə tərənnüm edir.

Yenilməz ucalıqdan gəlir səsin, sorağın,
Fövqündə dayanmısan hər kədərin, hər dağın.
Qaldırdın üfüqlərə qalibiyyət bayrağın,
Şöhrətindən danışır dünyanın hər milləti,

Azərbaycan dövləti!

**Və yaxud "Gözün aydın, Azərbaycan!" şeirində şair Ali Baş Komandana və əsgərlərə müraciət edərək qələbə sevincini poetik fikirləri ilə belə təcəssüm edir:**

Yayıldı dünyaya ən gözəl xəbər,
Bizimdir qələbə, bizimdir zəfər.
Alqışla səmaya ucaldı əllər,
Təbrikə oyandı kəndim, şəhərim,
Var ol, komandanım, var ol, əsgərim!



Çəkildi göylərə vətənin ahı,
Gülür şəhidlərin intizar ruhu.
Sizsiniz xalqımın əzmi, pənahı,
Dağılıb yox oldu qəmim, kədərim,
Var ol, komandanım, var ol, əsgərim!

"Şuşaya bir nəfəs qədər yaxınıq" (İ.Əliyev), "Saat işləmir", "Qalacaq izi", "Az qalıb", "Xocalı", "Vətən" və "Sən bir əsgərisən sahibzamanın" şeirləri şairin Vətənə bağlılığını bariz şəkildə göstərir. Şeirlər bir neçə bölməyə ayrılmışdır. Burada şairin "Veravulçay nəğməsi" sonet çələngi də diqqəti cəlb edir.

**Ağamir Cavadın ixtisası filoloqdur. Ona görə də o, kitabına "Ədəbiyyat nəzəriyyəsi" silsiləsindən romantizm, modernizm, realizm, postmodernizm, sürrealizm, ekzistensializm, tənqidi-realizm, simvolizm, futuralizm ədəbi cərəyanlarına aid şeir nümunələri verməklə oxucularda fikir aydınlığı yaratmışdır. Bu, onu göstərir ki, şair Ağamir Cavad ədəbiyyat nəzəriyyəsini mükəmməl bilir. Bir nümunə göstərim:**

Göy bir az Allaha bənzəyir-ənginliyi ilə.
Ümman bir az Allaha bənzəyir-dərinliyi ilə...

(simvolizm)
Mən sənin qarşında üzüağam, Allah!
Vicdanımın önündə üzüağam, Allah!
(ekzistensializm)
boş şeydi insanın doğulması,
ölüm də adi bir şey.
ata olmaq da boş şeydi,
ana olmaq da boş şey.
boş şeydi sevgi də, məhəbbət də,
boş şeydi vüsal da, hısrət də...
(postmodernizm) və s.

"Dəniz adam" şeiri çox maraqlı şeirlərdən biridir. Əbəs yerə şair kitabın adını həmin şeirin adıyla verməyib ki... Kitabın cildindəki şəkil də şairin ruhən dənizlə bağlılığını əks etdirir. Şair "dəniz adam"ı oxucuya elə tanıtdırır ki, onlar söhbətin kimdən getdiyini dərhal aydınlaşdırırlar, çünki şeirdəki "dəniz adam" elə şairin özüdür.

Eşqi pak, yolu işıq,
Halala, haqqa aşiq,
Tanrıya əziz adam-
Dəniz adam.

Şair Ağamir Cavad "Dəniz adam" kitabında səkkizliklərə və qəzəllərə də yer ayırmışdır. "Vətənim", "Məsum-məsum", "Əvəzi", "Çatdağ", "Divarın", "Oynatdın", "Qapısın", "Keçir", "Mənəm", "Gizlədib", "Bildi" və "Torpaq" qəzəlləri şairin əruzun bəhrlərindən məharətlə istifadə etməsindən xəbər verir.

Ağamir Cavad şeirlərinin fəlsəfi mahiyyəti onun ictimai, siyasi, əxlaqi normalarına müvafiq çox dərin mənalı fikirlər irəli sırməsindədir; bu da şairin dünyagörüşündən irəli gəlir.

Tənqidçi-alim Vaqif Yusifli Ağamir Cavad poeziyası haqqında yazır: "Ağamirin şeirlərində mən torpağın sözlə çəkilən tablolarını görmüşəm. Amma Ağamir Cavad hər şeydən əvvəl tale şairidir. O, dünyaya öz keçilmiş ömür yolunun pəncərəsindən və bir də şair ürəyindən boylanır."

Ədəbiyyatşünas alimin sözlərində böyük həqiqət vardır. Bu gün Ağamir Cavad poeziyası məhəbbət işığından nur ala-ala SÖZ meydanında özünə layiqli pərəstişkarlar tapmaqdadır. Söz aşiqləri isə əsl poeziyanı lazımınca qiymətləndirməyi bacarırlar.

**Fevral ayında şair Ağamir Cavadın anadan olmasının 60 illiyidir. Ağamir Cavadın şeirləri saf duyğulardan yaranıb, sanki dənizdən boylanır bizə. Mən qələm dostum Ağamir Cavada yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Qoy bundan sonra da əsərlərini eşq işığında yazıb-yaratsın!**

**Səyavuş SÜLEYMANLI,**
**yazıçı-publisist, Prezident mükafatçısı,**
**"Azad Azərbaycan" qəzetinin əməkdaşı**